# Uzaqlarda yaşasaq da...

8 və 10 noyabrda Azərbaycan yağmursuz islandı...övladları təkrar ağladı... Amma bu sevinc göz yaşlarıdır! Gözümüz aydın, Can Azərbaycanımız! 30 ildir torpaqlarımızı işğal edən, soydaşlarımızı uşaq, qadın, yaşlı demədən soyqırım edən terror dövləti Ermənistan sentyabrın 27-dən Azərbaycana qarşı başladığı savaşda məğlub olduğunu qəbul etdi. Azərbaycan Ordusunun gücünü, eloğlularımızın döyüş şücaətini gördü və əzildi, alçaldı...məğlub oldu!

Sil göz yaşlarını şəhid anası, atası, bacısı, qardaşı...Artıq şəhidlərimizin də ruhu şaddır. Qarabağın göz yaşı, torpaqlarımızın naləsi, dağlarımızın, çaylarımızın, hər daşımızın, təbiətimizin göz yaşı bizim çiyinlərimizdə idi...Çox ağır bir dərd, bir yük, bir çilə...

Hər kəsin işi deyil daşımaq, ancaq düz 30 il biz daşıdıq bu yükü-min bir əzabla daşıdıq.

Bizi yenidən siz var etdiniz, əsir torpaqlarımızı yenidən Vətən etdiniz, bizim yenidən yaşamağımıza stimul verdiniz, Vətən fədailəri, Vətən şəhidləri!

Adınız qarşısında baş əyirik, sevgi, şükran və minnətdarlıqla!

Ali Baş Komandanımız İlham Əliyevə və Vətən qazilərinə hörmət və sevgimiz sonsuzdur! Hər zaman var olun! Can Azərbaycanımız, igidlərimizlə, şəhidlərimizlə, üçrəngli bayrağımızla biz birik, birliyik, bütövük, güclüyük!

Bu gün biz də Azərbaycanımızın bir zərrəsi, bir damlasıyıq! Vətəndən uzaqlarda olsaq da qəlbimiz, varlığımız, ruhumuz doğma torpaqlarımızdadır! Vətəndə hava soyuduqda biz də üşüyürük, acısına ağlayırıq, sevincinə sevinir, qürurlanırıq. Həyatın sürpriz rüzgarları bizim istəyimizdən asılı olmayaraq bizi dünyanın müxtəlif yerlərinə səpələmişdir. Bu qələbə sevincini biz kaş ki, vətəndə yaşayaydıq... lakin Vətəndən kənarda da qələbə sevincindən doğulan göz yaşlarıyla bir- birimizi təbrik etdik, bizlər-qərib azərbaycanlılar da sizlər qədər sevindik, vüqar və qürur hissi keçirdik. Bir terror dövlətinin dünya qarşısında acizliyini, alçaldığını görmək bizə sülhsevər bir xalqın nümayəndəsi kimi əvəzedilməz sevinc hissi bəxş etdi.

30 ildir susqun, lal və kar olan bəzi dünya dövlətləri bu məğlubiyyəti gördü, duydu. Bu sevinc hissi əlçatmazdır!

Hər zaman var ol, Azərbaycan! Böyük Prezidentimiz, qəhrəman Azərbaycan Ordumuz, dəyərli xalqımız! Qarabağ Azərbaycandır!

**Fəxriyyə FƏRRUXZADƏ,**
**Antalya.**

# Sevinirik, çünki...

Qarabağ Azərbaycanın əzəli və əbədi torpağı, Şuşa Qarabağın açarı, Qarabağın gözüdür. Cıdır düzü, Xarı Bülbül, Şuşa qalası...

Biz artıq 28 ildir ki, bunların həsrəti ilə yaşayırdıq.

8 noyabr 2020-ci il...

Ordumuz bu həsrətə son qoydu. Xarı Bülbülü "qəfəsdən" azad etdi. Şuşanı azad etdi. Şuşaya müzəffər Azərbaycan Ordusu bayrağımızı sancdı. Ordumuz Şuşanı xüsusi qəhrəmanlıqla azad etdi. Xalqımız heç gözləmədiyi anda bu xəbəri aldı. Ali Baş Komandan, Prezident İlham Əliyev Şəhidlər Xiyabanından xalqa səsləndi: "Şuşa bizimdir!" dedi.

"Əziz Şuşa, Sən Azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" dedi.

Ali Baş Komandan bunu deyərkən, simasında yaranan o qürur hissi...

Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Cənab İlham Əliyev bununla, bütün dünyaya Azərbaycanın, Azərbaycan Ordusunun gücünü, əzmini sübut etdi.

Şuşanın azad olunması ilə qələbəyə bir addım daha yaxınlaşdıq. Azərbaycan xalqı heç gözləmədiyi bir vaxtda qələbə xəbəri aldı.

10 noyabr 2020-ci il. Gecə saat 02:00...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edir: "Bu gün tarixi gündür! Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur".

Düşmən rəsmi şəkildə məğlubiyyətini və təslim olduğunu etiraf etdi.

Xalq Şuşa xəbərinin sevincini yaşayarkən, bir də Qələbə xəbərini duydu. İnsanlar gec olmasına baxmayaraq, küçələrə çıxaraq, bir-birinə sarılaraq, oynayaraq bu bayramı qeyd edirdi. Biz sevinirik! Çünki, evimizə qayıdırıq.

Biz sevinirik! Çünki, şəhidlərimizin o torpaqlarda axan qanı yerdə qalmadı.

Biz fəxr edirik! Çünki, bizim güclü sərkərdəmiz, Ali Baş Komandanımız, Prezidentimiz var.

Biz fəxr edirik! Çünki, bu dövlətin mərd, dözümlü xalqı var.

Biz fəxr edirik! Fəxr edirik ki, bizim güclü ordumuz, igid oğullarımız var.

Bu qələbə sevincini bizə yaşatdıqları üçün şəhidlərimizin qarşısında baş əyirik. Ordumuza, igidlərimizə təşəkkür edirik.

SƏNƏ QƏLƏBƏ ÇOX YARAŞIR, AZƏRBAYCAN!

BİZƏ QƏLƏBƏ SEVİNCİNİ YAŞAMAQ ÇOX YARAŞIR, ƏZİZ XALQIM.

**İlahə RƏHİMOVA,**
**Vəndam qəsəbəsi.**

# YAŞA AZƏRBAYCAN

Göz yaşlarım quruyubdur yoxdur nəm,
Başım üstən dağılıbdır duman, çən,
Elim, obam şadlıq edir, yoxdur qəm,
Yaşa, yaşa ulu xalqım, çox yaşa,
Yaşa, yaşa Azərbaycan, çox yaşa!
Yaşa, Ali Baş Komandan, çox yaşa!

Bu gün üçün qurban getdi oğul, ər,
Vətən üçün şəhid getdi igidlər,
Ermənilər indi ağlar, inləyər,
Yaşa, yaşa ulu xalqım, çox yaşa,
Yaşa, yaşa Azərbaycan, çox yaşa!
Yaşa, Ali Baş Komandan, çox yaşa!

Kəlbəcərim, Şuşa, Laçın, Ağdərə
Neçə illər bürünmüşdü qəmlərə,
İndi baxıb azad olan ellərə,
Yaşa, yaşa ulu xalqım, çox yaşa,
Yaşa, yaşa, Azərbaycan çox yaşa!
Yaşa, Ali Baş Komandan, çox yaşa!

Ürəyimdə qalmayıbdır bir kədər,
Şəhidlərin qanı getməyib hədər,
Poladıma verin müjdəli xəbər,
Yaşa, yaşa ulu xalqım, çox yaşa,
Yaşa, yaşa, Azərbaycan…
10 noyabr- xalqın azadlıq günü,
Bayram edək, dayanmayaq bu günü,
Ürəklərdən qaldırın qəm yükünü,

**Rəna AZAXLI,**
**Qəbələ şəhəri.**

# Alqış sizə komandanım!

Alqış sizə komandanım!
Mənim Ali Komandanım!
Anan vətən, Atan vətən,
Vətən elə sən özünsən!
Xalqa xain olanları,
Əməlinlə süpürürsən
Erməninin, dığaların
Neçə-neçə alçaqların,
Gözlərini oyacaqsan.
Əməlləri murdar olan,
Xalqımıza tələ quran,
Tülkülərin, çaqqalların
Dərisini soyacaqsan.
Içimizdə olanlar var,
Insanlığa edir nifrət,
Adın qoyub müxalifət,
Düşmənlərə edir xidmət.
Əqidəsi yox onların.
Atıb çölə vicdanların,
Onların da yox üzləri
Qaralıbdır boz üzləri.
Mənim Ali Komandanım!
Nə yaxşı ki, Siz varsınız,
Millətimin taleyinə,
Şəfəq saçan günəşsiniz.
Dahilərin, dahisisiz,
Sərkərdələr, sərkərdəsi,
Ulu Öndər balasısız
Azərbaycan övladısız
Azərbaycan tarixində
Günəş kimi yanacaqsan!
Alqış Sizə!Alqış Sizə!
Azərbaycan tarixində,
Sən əbədi qalacaqsan!

**Sədiyar SƏFƏRƏLİYEV,**
**Qəbələ şəhəri, təqaüdçü.**

# Qalib ölkə vətəndaşı

Bu gün böyükdən kiçiyə hər kəsin ürəyindəki hisslər eynidir. Allah hər zaman ürəklərimizi bu cür, Vətənimizi bütöv, xalqımızı xoşbəxt etsin! Amin! Doğma yurdumuz Azərbaycan Polad Həşimov, Mübariz kimi bir çox qəhrəmanlarımız sayəsində bütöv Azərbaycan oldu. Işğaldan azad olunan əbədi və əzəli torpaqlarımız mənfur düşmənin tapdagı altından azad olundu. İndi qalib ölkənin vətəndaşıyıq. Bu çox qürurvericidir. Buna görə hər birimiz bir Azərbaycanlı olaraq bu adla fəxr edirik. 10 noyabr 2020-ci il. Qələbə gününün mübarək, AZƏRBAYCAN!

**Səbinə OSMANOVA,**
**Vəndam qəsəbəsi.**

# Qadağan olunan silahlar

Sentyabrın 27-dən noyabr ayının 10-a kimi işğalçı erməni ordusu ölkəmizin həm döyüş bölgələrinə, həm də döyüş bölgələrindən uzaq ərazilərə qadağan olunmuş bombalar, raketlər atmışdır. Dinc, mülki əhali arasında (hətta uşaqların belə) ölənlər, yaralanlar olmuşdur. Həmçinin yaşayış binaları, bir çox obyektlər, milli abidələrimiz, qəbristanlıqlar belə dağıdılmışdır. Vandal ermənilərin istifadə etdiyi qadağan olunmuş silahlardan ikisi haqqında qısaca məlumatı oxucularımıza çatdırmaq istərdik.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun nümayəndələri, səfirlər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri bu silahların atıldığı bölgələrdə olmuş, onların cinayət izləri ilə tanış olmuşlar.

**FOSFOR BOMBASI**

Kimyəvi tərkibli ağ fosforlu hərbi sursat nəyə görə qadağan olunub və onun yaratdığı fəsadlar nədir?

Fosfor D. İ. Mendeleyevin elementlərin dövri sistemində 15-ci elementdir. Fosforun təbiətdə 3 allotropik modifikasiyası bilinməkdədir. Ağ, qara və qırmızı fosfor. Ağ fosfor zəhərlidir. Onu qızdırdıqda qırmızı fosfora çevrilir. Qırmızı fosfor kükürd və şüşə qırıntıları ilə birlikdə kibrit istehsalında istifadə olunur. Bombalarda isə ağ fosfordan istifadə edilir.

Ağ fosfor atmosferdəki oksigen ilə birləşdikdə yanğın əmələ gəlir və bu zaman istilik min dərəcəni keçir. Yanğın ağ tüstü ilə müşahidə edilir və fosforun və ya oksigenlə təması bitməsinə qədər davam edir. Ağ fosforun 0,05 qramı yetərlidir ki, insanı öldürsün.

Bu kimyəvi silah insan orqanizminə daxil olan kimi tez həll olur. Mədə-bağırsaq sisteminin fəaliyyətini dərhal sıradan çıxarır, ürək sisteminin fəaliyyətinə güclü təsir edir və insanda halsızlıq, tənginəfəslik yaradır. Bu, təkcə fosfor məzmunlu bombaların tüstüsünün insanlara etdiyi təsirdir.

Xatırladaq ki, fosfor təyinatlı silahın istifadəsi düşmənin canlı qüvvəsinin gizləndiyi hər hansı bir hərbi obyektdən çıxarılması üçün istifadə edilir. Belə ki, tüstü və tərkibində güclü yanğın nəticəsində düşmənin canlı qüvvəsi gizləndiyi ərazidən çıxmağa məcbur qalır.

Ağ fosforlu bombalardan istifadə zamanı dinc əhali arasında tələfat riski böyükdür. Həmçinin fosforlu bombaların təsirindən yaralananları xilas etmək çətin olur. Onların bədənlərində ağ fosforun təsirindən əmələ gələn yanıqlar dərinin soyulmasına və dəhşətli yaralara yol açır.

Bundan başqa bu cür mərmilərin qəlpələri insanların bədənində dəhşətli yanıqlar əmələ gətirir. Mərminin qəlpələri hətta suda belə sönmür. Belə mərmilərin partlayışı nəticəsində insan bədəninin dərisi öz-özünə soyulur, yaraları müalicə etmək isə mümkün olmur.

Bu silahın istifadə edilməsinin qadağan edilməsi ilə bağlı müxtəlif beynəlxalq sənədlər qəbul edilib. İlk olaraq 1868-ci ildə Sankt-Peterburq deklarasiyasi qəbul edilib. Bundan başqa 1949-cu il müharibəsi qurbanlarının qorunması haqqında Cenevrə konvensiyaları və 1977-ci ildə onlara qəbul edilmiş əlavə protokollar, "Adi silahların konkret növləri haqqında konvensiyaya" III protokol (1980) (Həddən artıq ziyan vuran həsab edilə bilən və ya qeyri-seçim hərəkətinə malik adi silahların konkret növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudiyyət qoyulması barədə konvensiya) var.

**SMERÇ KASETLI RAKET**

Wikipedia məlumatlarına görə, 9K58 "Smerç" (BM-30) - Katyuşa nəslindən olan reaktiv yaylım atəşi sistemidir. Bu sistem 1970-ci illərin sonunda SSRİ dövlət tabeçiliyində olan Splav (Tula) silahhazırlama zavodunda yaradılıb. 1987- ci ildə SSRİ silahlı qüvvələrində tətbiq edilir. NATO bu sistemi ilk dəfə olaraq 1983-cü ildə müşahidə etdiyindən ona M1983 adı verilib. Smer qısa məsafəli raket sistemi olan FROG-7-ni əvəz edib.

Smerç sistemi dördoxlu MAZ-543M (kütləsi 43,7 ton, maksimal sürəti 69 km/saat) yük avtomobilinin üzərində yerləşdirilmiş 300 mm çaplı 12 boru paketindən ibarətdir. Bu sistem bütün raketləri 38 saniyəyə ata bilir. Atılmış yerləri raketlə yükləmək üçün 36 dəqiqə vaxt lazımdr. Tərkibində dörd Smerç sistemi olan batareya 48 ədəd raketlə təxminən sahəsi 800x800 m olan ərazini məhv edə bilir. Onun maksimal atış məsafəsindən (90 km, optimal 70 km) atəş zamanı verilmiş nişandan meyillənməsi 150 m həddindədir.

"Smerç"in üstün tərəfi çoxfunksiyalılığı, manevrliyi, yüksək etibarlığı, dəqiqliyi və gücüdür. Altı ədəd Smerçdən ibarət bir briqadanın açdığı yaylım atəşi ilə bir diviziyanın hərəkətini dayandırmaq və ya kiçik bir şəhəri tam məhv etmək mümkündür. Onun zəif cəhəti baha olması (bir ədədin qiyməti 12 milyon dollardır) və lokal konfliktlərdə tətbiqinin çətin olmasıdır. Azərbaycanda bu kompleksdən 30 (12-ədəd 9A52 və 18-ədəd 9K58) ədədin olduğu bildirilir.

**Afət SÜLEYMANLI,**
**«Qəbələ»**